# İsmayıllıda 27 baş zubr vəhşi təbiətə buraxılıb

**IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində 27 baş zubr vəhşi təbiətə buraxılıb. Bununla da Avropadan ölkəmizə gətirilərək Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisinə buraxılan zubrların sayı 41 başa çatıb.**

AZƏRTAC xəbər verir ki, zubrların adaptasiya dövründən sonra Şahdağ Milli Parkının ərazisinə buraxılmasını izləmək üçün əraziyə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin və WWF-nin Azərbaycanın nümayəndələri, məktəblilər, yerli sakinlər və təbiətsevərlər toplaşmışdılar. Onlar əvvəlcə zubrlar və maralların volyer şəraitində saxlanıldığı, adaptasiya dövrünü keçməsi üçün inşa edilən komplekslə tanış olub, bu heyvanların ilkin mərhələdə qəbul etdikləri qida məhsullarına baxış keçiriblər.



Xatırladaq ki, zubrlar vaxtilə Avrasiyada çox geniş arealda yayılsa da, ötən əsrin əvvəllərində vəhşi təbiətdə nəsli kəsilib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Hazırda dünyada mövcud olan zubrların böyük əksəriyyəti zooparklarda artırılıb və bu yolla növün bərpasına yönəlmiş səylər davam edir. Zubrların Azərbaycanda biomüxtəlifliyin daha da zənginləşdirilməsi və meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq, layihənin təşkilatçıları Azərbaycanın şimal bölgələrində yaşayan əhalini və ümumiyyətlə, ölkə ictimaiyyətini Qafqaz zubrlarının təbiətimizə qaytarılması, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işində dəstək olmağa çağırır.

Azərbaycan.- 2023.- 16 mart.- S.12.